





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# Azərbaycanın ədalət yürüşü



Dünən Ali Baş Komandan "Dəmir yumruq" əməliyyatının başlanmasının ildönümü münasibətilə xalqa müraciət etdi. Ardınca Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq yürüş keçirildi. Həmçinin Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyuldu. Bütün bunlar xalqımızn şəhidlərimizə əbədi minnətdarlığını, zəfərimizə sevgisini aydın nümayiş etdirdi.
Həmsöhbət olduğumuz Milli Məclis deputatlarının fikrincə, Prezidentin timsalında bütün Azərbaycan dünyaya sübut etdi ki, Vətən müharibəsinin yaratdığı reallıqlara, regional təhlükəsizlik sisteminə və sülhə sadiqdir.

## Tarix yazan xalq

**Siyavuş NOVRUZOV,**
*Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- Belə bir deyim var: tarixi qaliblər yazır. Eyni zamanda azadlıq, müstəqillik və Vətənin bütövlüyü uğrunda şərəfli mübarizə apararaq zəfər çalan xalqlar öz adlarını tarixə müzəffər xalq kimi yazdırırlar. Qürurverici haldır ki, XXI əsrdə döyüş meydanında işğalçını cəzalandıraraq torpaqlarını 30 ilə yaxın davam edən hərbi-siyasi əsarətdən xilas edən Azərbaycan xalqı tarix yazıb və öz adını tarixə silinməz izlərlə - əbədi yazdırıb. 27 sentyabr 2020-ci il tarixindən başlayan şanlı və möhtəşəm Zəfər yürüşünün hər bir anı, hər məqamı qəhrəmanlıq dastanıdır.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində vurğuladı ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir və bu qələbə tarixdə əbədi qalacaq. Bu qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı artıq dastana çevrilib.

Ermənistanın uzun müddət işğalçı siyasətini davam etdirməsi, beynəlxalq, birliyin isə laqeyd, qərəzli, ikili standartlara əsaslanan məsuliyyətsiz yanaşması Azərbaycan dövlətinin və xalqının səbrini tamamilə tükəndirmişdi.

Təcavüzkar dövlətin növbəti təxribatından sonra Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başlaması ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpası ilə nəticələndi. Bu, eyni zamanda xalqımızın milli qürurunun, milli ləyaqətinin bərpası oldu. Azərbaycan dövləti eyni zamanda "münaqişənin hərbi həlli yoxdur" deyən dairələrin, ikili standartlara əsaslananların, qərəzli mövqe ortaya qoyanların, ermənipərəst dairələrin siyasətini iflasa uğratdı. Dəfələrlə "Azərbaycan heç vaxt işğal faktı ilə barışmayacaq",- deyə qətiyyətlə bəyan edən Prezident İlham Əliyevin dəmir məntiqi, xalqımızın həmrəyliyinin, dövlətimizin qüdrətinin ifadəsi olan "Dəmir yumruq" öz sözünü dedi: Azərbaycan uzun illər BMT-nin kağız üzərində qalmış 4 qətnaməsinin icrasına öz gücü ilə nail oldu. Ölkəmiz bütün dünyaya haqlının güclü olduğunu, xalq-lider birliyinin ədalətin bərpasına və təntənəsinə gec-tez müvəffəq olacağını sübut etdi.

Xalqa müraciətində Prezident böyük zəfəri belə qiymətləndirdi: "Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 27 Sentyabr ölkəmizdə Anım Günü kimi qeyd edilir. Bu, xalqımızın həmrəyliyinin ifadəsi olmaqla yanaşı, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda edən qəhrəman Vətən övladlarına ali ehtiramın bariz nümunəsi, əyani ifadəsidir. Vətən yolunda şəhidlik zirvəsinə yüksələn və sağlamlıqlarını itirərək qazi olan qəhrəmanlarımızla qürur duyuruq.

Əminliklə söyləmək olar ki, dövlətimizin gücü, qüdrəti, Müzəffər Ali Baş Komandanımızın qətiyyətli siyasəti, xalqımızın mübariz ruhu, sarsılmaz birliyi Azərbaycanı yeni zəfərlərə aparacaq, yeni zirvələr fəth edəcəyik. Azərbaycan xalqı bundan sonra da müzəffər və qurucu xalq kimi öz adını tarixin yaddaşına silinməz izlərlə həkk edəcək, üçrəngli bayrağımız daim ən yüksək zirvələrdə dalğalanacaq.

Prezident İlham Əliyevin söylədiyi kimi, biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları yenidən qurub gülüstana çevirəcəyik.

Yaşasın güclü Azərbaycan! Yaşasın Müzəffər Ali Baş Komandanımız! Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm!

## Azərbaycanın yaratdığı reallıqlarla hər kəs hesablaşmalıdır

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü:*

- Xalqımız Vətən müharibəsindəki zəfərimizi təmin edən şəhidlərimizin xatirəsini respublikamızın hər yerində ehtiramla yad etdi. Ali Baş Komandan İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın iştirakı ilə keçirilən anım yürüşü, ölkə üzrə bir dəqiqəlik sükutun elan edilməsi, Bakı şəhərinin ən gözəl ünvanlarından birində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulması şəhidlərimizin, qətlə yetirilən mülki vətəndaşlarımızın xatirəsinə olan ehtiramın ali nümunələri oldu.

2020-ci ilin 44 günlük Vətən müharibəsi yalnız gələn ay 30-cu ildönümü tamam olacaq müasir müstəqillik tariximizin deyil, bütün dövlətçilik salnaməmizin ən böyük hadisələrindən biri olaraq tariximizi şərəfləndirdi, gələcəyimizə gur işıq saldı. Bu savaşda qazanılan qələbə xalqımızın qürur mənbəyinə çevrildi, fəxarətimiz oldu. Bu qələbə ilə həm də bütün şəhidlərimizin, Ermənistanın hərbi cinayətlərinin, törətdiyi soyqırımlarının qurbanı olan soydaşlarımızın intiqamını aldıq, onların qanı yerdə qalmadı. *"Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib"* - deyə Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində bildirdi.

Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında qalması müasir beynəlxalq münasibətlərin ən böyük ədalətsizliklərindən biri idi. İşğala məruz qalan da, işğalçı da gün kimi dünyaya məlum olsa da, beynəlxalq ictimaiyyət, xüsusən Qərb siyasi mərkəzləri və ATƏT-in Minsk qrupu əsl həqiqətləri dilə gətirməkdən hər vəchlə uzaq oldular. Proseslərə ikili standartlar prizmasından baxmaqla, deklorativ bəyanatlar çərçivəsindən çıxmamaqla Ermənistanın işğal siyasətinə dolayısı ilə dəstək verdilər. 30 ilə yaxın danışıqlar dövründə Azərbaycana təzyiqlər də oldu, respublikamızı özünün milli maraqlarının ziddinə olan kompromislərə getməsinə cəhdlər göstərdilər. Lakin Azərbaycan dövlətini öz yolundan döndərmək mümkün deyildi və xalqımız öz torpaqlarının uzun müddət Ermənistanın işğalı altında qalması ilə barışa bilməzdi.

Prosesləri düzgün dəyərləndirən Azərbaycan hakimiyyəti sülh danışıqları prosesinə sadiq qalmaqla digər variantları da nəzərdə saxlayırdı və torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəyini gizlətmirdi. Vaxtilə Ulu Öndərin yaratdığı Azərbaycan Ordusu ötən illərdə Ali Baş Komandan İlham Əliyevin sayəsində döyüş hazırlığını ən müasir səviyyəyə çatdırdı. Prezident İlham Əliyev qlobal səviyyədə Ermənistanın ifşasına nail olmaq üçün uğurlu siyasi-diplomatik fəaliyyət həyata keçirdi, o cümlədən torpaqlarımızın müharibə yolu ilə azad olunmasına xidmət edən beynəlxalq hüquqi zəminin formalaşmasına nail oldu. Beynəlxalq miqyasda qazandığımız uğurlar həm də Ermənistanın siyasi-diplomatik küncə sıxışdırılmasını şərtləndirdi.

Ötən il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatlarından sonra başlanan Vətən müharibəsi xalqımızın ümidlərini alovlandıran hadisə oldu. Cəmi 44 gün ərzində cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızı azad etməsi tariximizin yeni qəhrəmanlıq salnaməsi oldu. Cəmi 44 gün ərzində qazanılan tarixi qələbə xalqımızın mübarizliyinin, dönməzliyinin təcəssümünə çevrildi. Bu qələbə ilə Azərbaycan xalqı işğal faktı ilə barışmayacağını döyüş meydanında da sübuta yetirdi. Prezident İlham Əliyevin dünən xalqımıza müraciətində dediyi kimi, biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi.

Azərbaycanın qələbəsi siyasi leksikona dəyişikliklər edib. Artıq "Dağlıq Qarabağ", "Dağlıq Qarabağ münaqişəsi", "Mərhələli həll", "Madrid prinsipləri", "5+2" kimi ifadələr keçmişdə qalıb. Azərbaycanın qələbəsinin yaratdığı yeni reallıqlar "Şərqi Zəngəzur", "Zəngəzur dəhlizi", "Üçtərəfli Bəyanat" kimi ifadələri leksikona daxil edib. Prezident İlham Əliyevin dediyi kimi: *"Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır".*

Ərazi bütövlüyünü təmin edən, erməni faşizminin başını əzən Azərbaycanın yaratdığı reallıqları hər kəs anlamalıdır. Ermənistanın isə bu reallıqları qəbul etməkdən başqa şansı yoxdur. Çünki qalib Azərbaycan bu ölkəyə başqa yol qoymayıb.

## Məğrurluğun və milli ləyaqətin təcəssümü

**Cəbi QULİYEV,**
*Milli Məclisin deputatı*

- Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsinin başlandığı gün - sentyabrın 27-si tariximizin şanlı səhifəsidir. Prezident İlham Əliyevin sərəncamı ilə bu tarixin Anım Günü kimi təsis edilməsi şəhidlərimizin xatirəsinə olan yüksək ehtiramın təcəssümüdür. Dünən şəhid məzarlarını ziyarət edən xalqımız bir daha qəhrəman vətən övladlarını yad etdi. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirak etdikləri Anım yürüşü Azərbaycanın şanlı qələbəsini və Ermənistanın müharibə cinayətlərini bir daha bütün dünyaya bəyan etdi. Təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi isə şəhidlərimizin xatirəsini əbədiləşdirəcək, onların qəhrəmanlıqlarını gələcək nəsillərə çatdıracaqdır.

Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi olan İkinci Qarabağ müharibəsinin başlanmasının birinci ili tamam oldu. Ötən ilin bu günlərində Ermənistanın təxribatlarına cavab olaraq əks-hücum əməliyyatlarına başlayan Azərbaycan Ordusu möhtərəm Prezident İlham Əliyevin ali baş komandanlığı ilə cəmi 44 gün ərzində öz vəzifəsini layiqincə yerinə yetirdi.

Torpaqlarımız 30 ilə yaxın işğal altında qalsa da, xalqımız öz ümidini heç vaxt itirmədi. Bu illər ərzində Azərbaycana çox təzyiqlər edildi. Bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanısa da, BMT tərəfindən torpaqlarımızın işğaldan azad olunmasını tələb edən 4 qətnamə qəbul edilsə də, heç bir nəticəsi olmadı, bu illər ərzində yalnız ikili standartlarla üzləşdik. Problemin həlli ilə məşğul olan beynəlxalq vasitəçilər heç vaxt işğalçını öz adı ilə çağırmadılar, işğal siyasətinə son qoyması üçün Ermənistana təsir göstərmədilər, əksinə, milli maraqlarına zidd olan kompromislərə getməklə Azərbaycana təzyiq etməyə cəhd göstərdilər.

Amma bütün bunlar, düşmənə edilən təəssübkeşlik, dolayısı ilə işğala haqq qazandırılması xalqımızın iradəsini sındıra bilməzdi. Bu illər ərzində xalqımız öz yolundan dönmədi. Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin Azərbaycanı dinamik inkişaf yoluna çıxarması həm də torpaqlarımızın azad edilməsi üçün tarixi şəraitin formalaşmasına imkan yaratdı. Bu inkişafdan irəli gələrək ordumuz tamamilə yenidən quruldu, döyüş hazırlığı ən yüksək səviyyəyə çatdırıldı, hərbi arsenalımız ən müasir silah və texnika ilə zənginləşdirildi. 27 Sentyabr - Anım Günü ilə bağlı Prezident İlham Əliyevin xalqımıza müraciətində dediyi kimi: "Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik".

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi milli ləyaqətimizin, milli qürurumuzun təntənəsi oldu. Eyni zamanda Vətən müharibəsi Azərbaycan xalqının milli həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Dinindən, dilindən asılı olmayaraq respublikamızda yaşayan bütün xalqların nümayəndələri torpaqlarımızın azadlığı uğrunda silaha sarıldılar, bu müqəddəs amal uğrunda Prezident İlham Əliyevin ətrafında sıx səfərbər oldular.

44 günlük İkinci Qarabağ müharibəsində dünya ictimaiyyəti Prezident İlham Əliyevin timsalında xalqına son dərəcə bağlı olan, dövlətinin maraqlarını bütün maraqlardan uca tutan, vətənpərvər bir siyasi liderin qətiyyətinə şahidlik etdi. Cənab İlham Əliyev hələ müharibəyə qədər torpaqlarımızın azad olunması barədə nə demişdisə, onu da etdi. Güc yolu ilə, müharibə yolu ilə düşməni torpaqlarımızdan qovdu. Heç bir qüvvə, heç bir təzyiq dövlətimizin başçısını öz müqəddəs yolundan döndərə bilmədi və bilməzdi də. Beləliklə, bu müharibə göstərdi ki, Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunu dəstəkləməklə, İlham Əliyevə etimad göstərməklə özünün ən düzgün, ən müdrik seçimini edib.

Torpaqlarımızı azad edənlər, döyüş meydanında üzbəüz şəkildə düşməni məğlub edənlər bizim qəhrəman hərbçilərimiz oldular. Onların cəsarəti, qorxmazlığı, hünəri və hərbi hazırlıq baxımdan peşəkarlıqları qarşısında ən mükəmməl döyüş imkanlarına malik düşmən belə tab gətirə bilməzdi. Azərbaycanın bütün bölgələri kimi, qədim yurdumuz Naxçıvanın mərd oğulları da bu müharibədə öz sözlərini mərdliklə dedilər. Onların hər biri ağır hərbi əməliyyatlarda qəhrəmanlıq salnaməsi yaratdı, hər biri öz döyüş nümunəsi ilə qələbənin simvoluna çevrildi. Bu müqəddəs yolda onlar ölümün gözünə dik baxdılar, canlarını fəda etdilər. Azərbaycan ictimaiyyəti öz şəhid övladlarının əziz xatirəsini hər zaman uca tutacaq və daim yaşadacaq.

Azərbaycan Vətən müharibəsindəki qələbə ilə torpaqlarını azad etdi, erməni faşizminin başını əzdi. Artıq regionumuz üçün yeni reallıqlar hakimdir. Prezident İlham Əliyevin dediyi kimi, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır və xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik: "Bunu hər kəs bilsin! Müharibənin və qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

Bu gün xalqımızın başı ucadır, alnımız açıqdır. İndi biz müzəffər xalqın nümayəndələriyik, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovmuşuq, milli ləyaqətimizi təmin etmişik. Xalqımızı məğrur edən bu qələbə bundan sonra bütün tariximizi şərəfləndirəcək, sədası əsrlərin, min illərin o tayından gələcək.

***"Azərbaycan"***